140 saylı orta məktəbdə keçirilən təlimdə 156, 183, 237, 282 və 290 saylı orta məktəblərin, eləcə də Uşaq-gənclər idman məktəbinin fiziki tərbiyə müəllimləri iştirak edib. Təlimin keçirilməsində məqsəd Suraxanı və Əzizbəyov rayonlarında xüsusi qayğıya ehtiyacı olan uşaq və yeniyetmələrin idmana cəlb edilməsi ilə onların hərəkət fəaliyyətini artırmaq və inkişaf etdirməkdən ibarət olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2009-cu dərs ilindən Təhsil Nazirliyi Böyük Britaniyanın İdman Şurası, YUNİSEF, “Ümidli Gələcək” Gənclər Təşkilatı ilə birgə “Uşaqlara şən, sağlam həyat bəxş edək!” layihəsini həyata keçirir. “Oriqami” təşkilatı da bu layihə çərçivəsində qeyd olunan qurumlarla yaxından əməkdaşlıq edir.